***İşğaldan azad edilmiş Qarabağda və ətraf rayonlarda minlərlə maddi-mədəni, dini abidələrimiz var ki, onların da, demək olar ki, hamısı işğal dövründə erməni vandalizminə məruz qalıb. Bu zəngin irsin yenidən bərpası qarşıda duran başlıca vəzifələrdəndir...***

# Qarabağdakı mədəni-dini abidələrimiz bərpa olunur



Ermənilər dini abidələrimizin başına min bir oyun açsalar da, onların milli və dini indentikliklərini silə bilməyiblər. Həmin örnəklər bizim mənəvi dəyərlər sistemimizin ayrılmaz parçasıdır.

İşğal altında qalmış bütün rayon və kəndlərimizdəki məscidlər, ziyarətgahlar və digər dini abidələr dağıdılıb pis günə qoyulub. Zəngilan və Ağdamdakı məscidlərdə ermənilər donuz saxlayırdılar. İndi həmin məscidlərdə bərpa işlərini Heydər Əliyev Fondu həyata keçirir. Prezident İlham Əliyev Zəngilanda dağıdılmış məsciddə olarkən bildirmişdir ki, tezliklə bütün tarixi, mədəni, dini abidələrimiz bərpa olunaraq, əvvəlki görkəminə qaytarılacaq. Xalqımızın min illərin o tayından adlayıb gələn tarixi kökləri qorunacaq və məkrli ermənilərin tarix səhifələrindən silməyə çalışdığı həqiqətlər olduğu kimi yenidən bərpa edilərək, Azərbaycan xalqının zəngin xəzinəsi kimi gələcəyə ötürüləcək.

Cənab Prezident Şuşada olarkən Saatlı məscidini də ziyarət etmişdir. Dövlət başçısı buradakı çıxışında bildirmişdi: “Məkkədən gətirilmiş “Qurani-Şərif”i Saatlı məscidinə hədiyyə etdim. Sonra Aşağı Gövhərağa, Yuxarı Gövhərağa məscidlərində olacağıq. Oraya da müqəddəs Məkkədən gətirdiyim “Qurani-Şərif”i bağışlayacağam.

Düşmən bizim azad edilmiş torpaqlardakı dini abidələrimizi işğal dövründə məhv edib, 67 məscidi dağıdıb, yaxud da ki, belə yararsız vəziyyətə salıb. Şuşa işğaldan azad olunandan sonra bizim vətəndaşlar əl gəzdirib, məscidi təmizləyib və müəyyən təmir işlərini görüblər. Ancaq, əlbəttə ki, məscidin əsaslı təmiri bundan sonra aparılacaq, bütün müvafiq göstərişlər verilib, Heydər Əliyev Fondu bu missiyanı öz üzərinə götürüb. Mehriban xanım bu barədə açıqlama verib və biz bütün tarixi-dini abidələrimizi bərpa edəcəyik”.

Otuz ilə yaxın düşmən tapdağı altında qalan, dağıdılan, məhv edilən, təhqir olunan, dini abidələrimizin, məscidlərimizin yenidən həyata qaytarılması prosesinə start verilib. Belə ki, ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevanın rəhbərliyi ilə fond tərəfindən Qarabağdakı dini abidələrimizin, məscidlərimizin bərpası layihəsi həyata keçirilir.

Bərpa işlərinə xarici ölkələrin də şirkətləri qoşulmuşlar. Məsələn, Avstriyanın “Atelier Erich Pummer GesmbH” şirkətinin rəhbəri, memar Erix Pummer Ağdam məscidində olub və məscidin mövcud vəziyyətinə dair qiymətləndirmə aparılıb. Artıq bu məscidin bərpa işləri yekunlaşmışdır.

Ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində paylaşım etmişdi. Paylaşımda deyilirdi: “30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarımız Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında, qəhrəman əsgər və zabitlərimizin şücaəti sayəsində azad edilmişdir. Əlbəttə, işğaldan azad olunmuş torpaqlarımızdakı hazırkı mənzərəni hər birimiz ürək ağrısı ilə seyr edirik...Əminliklə bildirmək istəyirəm ki, Prezident İlham Əliyevin rəhbərliyilə bütün Qarabağ bölgəsini Azərbaycanın ən gözəl bölgələrindən birinə çevirəcəyik....Bu gün isə qürur hissi ilə sizə Heydər Əliyev Fondunun qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığını bildirmək istəyirəm”.

Fond tərəfindən həyata keçirilən bu layihə Qarabağın maddi-mədəni irsinin bir parçası olan dini abidələrimizin bərpası baxımından təqdirəlayiqdir. Faktiki olaraq, Qarabağdakı dini abidələrimizin bərpa edilməsi prosesinin başlanması Azərbaycan tərəfindən tarixi gerçəklik missiyasının, ədalətin bərpası deməkdir. Birinci xanım Mehriban Əliyevanın bu tarixi müqəddəs işə rəhbərlik etməsi onu deməyə əsas verir ki, layihə çox böyük uğurla həyata keçiriləcək. İşğaldan azad edilən ərazilərimizdəki dini abidələrimizin bərpa edilməsi prosesinə xarici mütəxəssislərin cəlb edilməsi, artıq onların ilkin qiymətləndirmələr aparması təqdirəlayiq haldır.

***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 13 yanvar.- S.10.